# SÖZÜN QARTAL UÇUŞU

***Şair Xutra Ramazana kiçik bir məktub***

Əzizim Xutra Ramazan! Tanışlığımızın və dostluğa çevrilən münasibətlərimizin tarixi çox uzun olmasa da, qəlbimizin istəyi ilə bəzən insanların onilliklərlə keçə biləcəyi ünsiyyət yolunu qısa müddətdə qət etmişik. Elə münasibətimizin səmimiyyətinə güvənib yeni əsərin haqqında bir neçə kəlmə ilə fikrimi bildirmək istədim.

"Qartallar Şuşaya uçur" əsərin İkinci qarabağ savaşı ilə bağlı, yəni torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda müharibə mövzusunda yazılmış ikinci əsərin kimi məndə xüsusi maraq doğurdu. Doğrusu, mənə elə gəlirdi ki, bu mövzuda sən bir şair olaraq "Vətənə oğul gərək" adlı poemanda öz sözünü demisən, yeni nəsə deyə bilmək bu qısa müddət üçün mənə bir qədər inandırıcı görünmürdü. Ancaq istedadın və zəhmətin nəyə qadir olduğunu məlum mövzuda yazdığın, və qəzetin bu sayında oxuculara təqdim olunan "Qartallar Şuşaya uçur" adlı poeman daha aydın göstərdi. Mən təbiət etibarı ilə şəkkak adam deyiləm. Hər halda qısa müddətdə ikinci bir möhtəşəm əsəri yaratmaq... bu mənə inamımda bir qədər tərəddüdlər gətirirdi.

Sən demə insan bütün varlığını sözə, sənətə səfərbər edəndə onun dağlar yaran Fərhad qədər gücü aşkara çıxa bilərmiş: "Qartallar Şuşaya uçur" poeması bunu təsdiq edir.

Mən bu əsərdə müəllifin açıq-aşkar iki qürur mənbəyini gördüm. Bu qürur mənbəyinin birincisi, Azərbaycandır. Onun mənəvi paytaxtı Şuşadır. Müəllif Azərbaycansız, Şuşasız və demək Qarabağsız özünü çox sınıq gücsüz və bəlkədə vecsiz görür. Yaxşı ki, belə deyil. O bütün varlığı ilə azərbaycanlıdır, Qarabağlıdır və Şuşalıdır. Və elə buna görədə güclüdür, qüdrətlidir, özünə inamlıdır. İkinci qaynaq, bu sənin mənsub olduğun etnosdur. Avar ruhudur. Özünə güvəncin əsas qaynağı kökdən, tarixi adət-ənənədən, qardaşlıqda axıracan sədaqətli olmaqdan güc alır. Zənnimcə sənin poemanın əsas mübarizlik ruhunu ən başlıcası, yüksək ilhamla yazılmasını təmin edən ruh bu qaynaqlardan qidalanır. İlhamının qanadlanmağı mənəvi ucalığın təsdiqi kimi görünür. Əsərin əsas qəhrəmanı Azərbaycan ordusudur, Azərbaycan əsgəridir. Əlbəttə, bu əsərdə Azərbaycan ordusunu, Azərbaycan əsgərini avar ruhu olaraq Vətənə sədaqətli qəhrəman Ramazan İzzət oğlu Hudulov təmsil edir. Sən bir şair olaraq əsərin qəhrəmanını fərdi hissləri, həyəcanları ilə önə çəkir. Onun duyğularını vətənsevərlik idealı ilə qovuşduraraq ictimailəşdirirsən. Biz əsərdə Ramazan Hudulovu bir xalq qəhrəmanı kimi görürük. Onun Şuşa uğrundakı fədakarlığı sözün həqiqi mənasında oxucu qəlbini titrədən ən duyğulu misralarla qələmə alınıb.

Əzizim Xutra Ramazan, çox dəyərli əsərə görə mən səni təbrik edirəm və bunu da deməyi özümə borc bilirəm. Tərənnümlərin bəzən o qədər həssaslıq zirvəsinə qalxır ki, oxucunu yüksək dərəcədə həyəcanlandırır, kövrəldir, qürurun göz yaşlarına qərq edir. Mən bu hissləri yaşadım. Buna görə sənə minnətdarlığımı bildirirəm.

***Əli Rza XƏLƏFLİ***
***08.04.2021***